# GÖYƏRÇİN

İSSN-0207-4710
12
2022







# OD, SU VƏ ŞƏRƏF

**(İtalyan xalq nağılı)**

Burada deyilənlərə inana da bilərsiniz, inanmaya da. Ancaq sona qədər dinləsəniz bunun indiyə qədər eşitdiyiniz ən ibrətamiz hekayə olduğu ilə razılaşacaqsınız.

Bir dəfə Od ilə Su qarşılaşdılar. Məlumdur ki, Od sakit oturmağı sevmir. O, sobanın içində ağzıbağlı olanda belə, oradan necə çıxmaq, hər tərəfi yandırmaq haqqında düşünür. Su isə həmişə bir yerə, üzü aşağı can atır. Xülasə, rastlaşandan sonra onlar birlikdə gəzmək qərarına gəldilər.

Elə onlar təzəcə gəzintiyə çıxmaq istəyirdilər ki, hardansa Şərəf də gəlib çıxdı. Od və Su çox təəccübləndilər, çünki onlar indiyə qədər heç harda Şərəflə rastlaşmamışdılar. Ancaq başa düşdülər ki, bu, təsadüfi gəliş deyil. Burada nəsə bir hikmət var.

Od ilə Su Şərəflə salamlaşdılar. Sonra ondan soruşdular ki, Siz də bizimlə birlikdə səyahətə çıxmaq istərdinizmi?

Şərəf ədəb-ərkanla onların salamını aldı və dedi:

-Dəvətiniz üçün təşəkkür edirəm. Ümid eləyirəm ki, bu, xoş, ürəkaçan bir səyahət olacaq. Ancaq mən səyahət yoldaşlarımın kim olduğunu, onların nə etmək istədiklərini bilmək istəyirəm.

Əvvəlcə Su dilləndi:

-Cənab, siz qətiyyən narahat olmayın. Mənimlə səfər yoldaşı olmaq sizə heç bir utanc gətirməz. Mən yolçuların susuzluğunu yatırıram, toz-torpağı yuyuram, tarlaları suvarıram, dəyirman çarxlarını hərlədirəm.

Suyun dedikləri həqiqət idi. Ancaq o, bəzən coşub daşdığını, bənd-bərəni dağıtdığını, kəndləri su altında qoymasını, gəmiləri sındırıb dağıtmasını, onları dənizlərin qoynunda qərq etməsini söyləmədi. İlk görüşdə bu xasiyyətləri haqqında danışmağa ehtiyac duymadı.

Sonra Od danışdı:

-Mən insanlara çox lazımam. Hər yanı işıqlandırır, üşüyənləri isidir, evləri qızdırır, onlara yemək bişirməkdə, dəmirçilərə dəmiri döyməkdə kömək edirəm.

Od da Su kimi təzə tanışına pis əməlləri haqqında heç nə demədi. Meşələri, evləri amansızcasına yandırmağından danışmadı.

Təzə tanışlarının yaxşı əməlləri haqqında məlumat alan Şərəf çox sevindi. Üzünü onlara tutub dedi:

-Tanışlığımıza çox şad oldum. Sizinlə birlikdə gəzintiyə çıxmağa razıyam.

Od dedi:

-Tələsməyin. Yolda bir-birimizdən ayrı düşsək, məni necə tapacağınız haqda məlumat vermək istəyirəm. Harada tüstü görsəniz, bilin ki, mən ordayam. Çünki od yanmasa, tüstü çıxmaz.

Su dedi:

- Bitkilərin saralıb solduğu, istidən torpağın çatladığı yerdə məni axtarmayın. Mən salxım söyüdlərin, qızılağacların, qamışların və hündür yaşıl otların olduğu yerdəyəm.

Şərəf dedi:

-Mənim isə elə bir xüsusi əlamətim yoxdur. Əgər mənimlə dost olmaq, həmişə yanımda qalmaq istəyirsinizsə, çalışın ki, məni göz bəbəyi kimi qoruyasınız, heç zaman itirməyəsiniz. Bu mənim heyrətamiz, özünəməxsusluğumdur, cənablar. Kim məni itirsə, bir daha tapa bilməyəcək.

Şərəf təzə tanışlarından fərqli olaraq heç nəyi gizlətmədən əsl həqiqəti söylədi.

**Tərcümə edəni:**
**R.Y.Əliyev**